# Azərbaycan həqiqətləri beynəlxalq mətbuatda

Azərbaycanın 44 günlük Vətən müharibəsi və şəhidlərimizin xatirəsini Anım Günü ilə əlaqədar Misir mətbuatında məqalələr dərc olunmaqdadır.

AZƏRTAC xəbər verir ki, Misirin "Əl Ğad", "Əl Diplomasi", "Yeni dünya xəbərləri" kimi mətbu orqanlarında Azərbaycanın bu ölkədəki səfirliyinin təqdim etdiyi materiallar əsasında "Qarabağ: Dəmir yumruğun döyüşü" sərlövhəli məqalə dərc edilib.

Məqalədə qeyd olunur ki, 30 ilə yaxın müddətdə "dondurulmuş" münaqişə adlanan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin davam etdiyi günlərin birində - ötən il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı növbəti hərbi təxribatı, dinc əhaliyə hücumu Azərbaycan Ordusunu beynəlxalq hüquq normalarına uyğun olaraq qətiyyətli tədbirlər görməyə məcbur etdi. Düşmənin təxribatına qarşı aparılan genişmiqyaslı hərbi əməliyyatlar İkinci Qarabağ müharibəsinin başlanması demək idi. Azərbaycan tərəfi özünümüdafiə prinsipindən çıxış edərək və öz yaşayış məntəqələrində əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə əks-hücuma başladı.

Yazıda diqqətə çatdırılıb ki, Ermənistanın Azərbaycana qarşı təcavüzünün davam etməsi beynəlxalq hüquq normalarının, o cümlədən 1949-cu il tarixli Cenevrə Konvensiyasının müddəalarının və ona əlavə edilmiş protokolların, işğalçı silahlı qüvvələrin əraziləri dərhal və qeyd-şərtsiz azad etməsini tələb edən BMT Təhlükəsizlik Şurasının qətnamələrinin kobud şəkildə pozulması idi. Əlbəttə, Azərbaycan tərəfi öz ərazilərini azad etmək üçün müharibəyə hazırlaşdığını heç vaxt gizlətmirdi, lakin problemin sülh yolu ilə həllinə çalışırdı. Amma Ermənistanın qeyri-konstruktiv mövqeyi və son illər artan hərbi təxribatları bu ehtimalı heçə endirdi.

Azərbaycan Prezidenti İlham Əliyevin bununla bağlı fikirlərinin sitat gətirildiyi məqalədə qeyd olunur ki, münaqişənin həllində vasitəçi rolunu oynamış ATƏT-in Minsk qrupu problemin nizama salınmasının hərbi yolu olmadığını iddia edirdi. Lakin 30 ilə yaxın aparılan danışıqlar heç bir nəticə vermədi. Hətta bəziləri düşünürdülər ki, Azərbaycan xalqı bu vəziyyətə daha 30 il dözəcək. Torpaqların işğal altında saxlanması Azərbaycana qarşı təzyiq vasitəsi idi. Bəzi dairələr bu reallıqla barışmağı təlqin edirdilər. Məqalədə Azərbaycanın dövlət başçısından gətirilən sitatda deyilir: "Biz bu günü 30 il səbirsizliklə gözləmişik, 30 il Vətən həsrəti ilə yaşamışıq. 30 il ədalətsizliklə barışmalı olurduq, amma barışmırdıq və hər dəfə deyirdik ki, bu vəziyyətlə biz heç vaxt barışmayacağıq, nəyin bahasına olursa-olsun, öz doğma torpaqlarımızı işğalçılardan azad edəcəyik və bunu etdik".

* * *

Əlcəzair Universitetinin Beynəlxalq hüquq fakültəsinin professoru Yusif Xori "Əl-Vasit Əl-Mağaribi" qəzetində "Azərbaycanda şəhidlərin Anım Günü qeyd edilir" sərlövhəli məqalə ilə çıxış edib.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə Azərbaycanda Anım Gününün təsis edildiyi bildirilib. Qeyd edilib ki, bu, Vətən müharibəsində qəhrəmancasına döyüşərək ölkənin ərazi bütövlüyü yolunda canlarından keçmiş əsgər və zabitlərin xatirəsinə dərin ehtiramın ifadəsidir.

Yazıda Anım Günü ilə bağlı Azərbaycanın Əlcəzairdəki səfirliyində keçirilən tədbirdən bəhs edən müəllif diqqətə çatdırıb ki, Azərbaycanın Əlcəzairdəki dostları, ziyalılar diplomatik nümayəndəliyə gələrək şəhidlərin əziz xatirəsinə dərin ehtiramlarını ifadə edirlər.

Məqalədə 44 günlük müharibənin səbəbləri, Ermənistanın 30 il davam edən işğalçılıq siyasəti, qüdrətli Azərbaycan Ordusunun torpaqları düşməndən azad etməsi barədə məlumat verilir. Bildirilir ki, Azərbaycan Ordusu BMT Təhlükəsizlik Şurasının 30 ilə yaxın müddətdə icra edilməyən qətnamələrini və digər beynəlxalq sənədlərin tələblərini 44 gün ərzində uğurla icra etdi.

İşğal dövründə bütün ərazilərin minalandığını qeyd edən müəllif bildirir: "Hətta müharibədən sonra Ermənistan silahlı qüvvələrinin minaladığı ərazilərdə mülki şəxslər və azərbaycanlı hərbçilər həlak olublar. Ermənistanın bu müharibə cinayəti nəticəsində azərbaycanlı jurnalistlər - AZƏRTAC-ın əməkdaşı Məhərrəm İbrahimov və Azərbaycan Televiziyasının operatoru Sirac Abışov şəhid olub. Təbii ki, Ermənistan törətdiyi bu cinayətlərə görə beynəlxalq məhkəmə qarşısında cavab verməlidir".

* * *

Malayziyanın nüfuzlu "Utusan Malaysia" qəzeti Azərbaycanın 44 günlük Vətən müharibəsinin başlamasının ildönümü ilə bağlı geniş məqalə dərc edib.

AZƏRTAC xəbər verir ki, "Ermənistan-Azərbaycan müharibəsinin ildönümü" sərlövhəli məqalə qəzetin xarici xəbərlər üzrə müxbiri Taqib Şaker tərəfindən qələmə alınıb.

Məqalədə Ermənistanın 1980-ci illərdən etibarən Azərbaycana qarşı başlatdığı təcavüzkar siyasətin məğzi izah olunub, sonrakı dövrlərdə Ermənistanın apardığı siyasətin açıq və qanlı zorakılığa çevrildiyi və Azərbaycanın keçmiş Dağlıq Qarabağ vilayəti və ətraf rayonlarının işğalı ilə nəticələndiyi qeyd edilib. Müəllifə görə, Ermənistanın həmin illərdə işğalçılıq hissi o qədər şiddətlənib ki, hətta keçmiş Dağlıq Qarabağ vilayətindən kifayət qədər uzaqda olan Azərbaycan ərazilərini, misal üçün, Naxçıvan Muxtar Respublikasının Kərki kəndini də silah gücünə ələ keçirib.

T.Şaker yazır ki, ötən əsrin 90-cı illərində baş verən dəhşətli hadisələrdə Ermənistan tərəfi nəinki beynəlxalq çağırışlara və vasitəçilik cəhdlərinə məhəl qoymayıb, hətta 1991-ci il noyabrın 20-də Qarakənd faciəsini törədərək məsələnin dinc yolla nizamlanmasına çalışan 22 nəfər günahsız azərbaycanlını və xarici ölkə vətəndaşını helikopterdə qətlə yetirib. BMT qətnamələrini qulaqardına vuraraq öz işğalçı əməllərini davam etdirib.

Müəllif hesab edir ki, Qafqaz regionunda Ermənistan kimi kiçik və inkişaf etməmiş ölkənin özünü beynəlxalq ictimaiyyət qarşısında bu qədər "cəsur" şəkildə aparması, o cümlədən azərbaycanlılara qarşı təkəbbürlü davranışı həmişə təəccüb doğurub. T.Şakerə görə, Azərbaycan məscidlərinin donuz tövləsinə çevrilməsi, iki il əvvəl Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycanın həmin vaxtlar işğal altında olan torpaqlarında sərxoş şəkildə rəqs etməsi hadisələrin pik nöqtələrindən sayıla bilər.

Lakin müəllifin fikrincə, Ermənistanın belə təkəbbürlü davranışları, o cümlədən işğalçı əməlləri yalnız 44 günlük Vətən müharibəsinə qədər davam edib. T.Şaker yazır: "İndi isə Azərbaycan regionda sülh, təhlükəsizlik və əməkdaşlıq gözləyir. Azərbaycan Prezidenti İlham Əliyev qeyd edib ki, artıq Dağlıq Qarabağ məsələsi həll olunub".

Müəllif onu da vurğulayıb ki, Malayziya hələ ötən illər ərzində həmişə birmənalı şəkildə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib. Bu dəstək isə həmişə Azərbaycan xalqı tərəfindən rəğbətlə qarşılanıb. Vətən müharibəsi dövründə də Malayziyanın qətiyyətli mövqeyi davam edib. Müharibə başladıqdan dərhal sonra Malayziya Xarici İşlər Nazirliyi Azərbaycanın ərazi bütövlüyünə dəstək ifadə edən və tərəfləri dinc nizamlamaya çağıran bəyanat verib. Malayziya Parlamentində dostluq qrupunun rəhbəri Datuk Rosman bin Datuk Haji Isli isə 2020-ci il oktyabrın 1-də Ermənistanın işğalçı fəaliyyətlərini kəskin şəkildə pisləyən sənəd imzalayıb.

Məqalənin sonunda müəllif oxuculara müraciət edərək Azərbaycan və Malayziya arasında qardaşlıq münasibətlərinin mövcud olduğunu, bu baxımdan Azərbaycanda baş verən hadisələrin yaxından izlənilməsinin əhəmiyyətini xatırladır.

Əlavə olaraq qeyd edək ki, 1939-cu ildən nəşr olunan "Utusan Malaysia" Malayziyanın ilk malaydilli qəzeti olmaqla yanaşı, ən yüksək tirajla gündəlik dərc edilir və ölkənin ən ucqar nöqtələrinə çatdırılır.

Azərbaycan.- 2021.- 28 sentyabr.- S.15.